YENİ TƏFƏKKÜR Yüksəlişə doğru yol!

# "ŞƏHİD NƏĞMƏSİ"NDƏ DALĞALANAN "AL BAYRAĞIM"

**1990-cı ilin 20 yanvarında xalqımızın taleyində yeni dövrün şəhidlik səhifəsi açıldı. Ta qədim zamanlardan öz yurdu uğrunda, vətəni, halal haqqı uğrunda mübarizələrdə qanlar axıdıb şəhidlər verən xalqımız XX əsrin sonuncu çərəyində də - 1980-ci illərin axırlarında da milli azadlığı uğrunda qəhrəman oğul və qızlarını qurban verdi. Beləcə, şəhidlik mövzusu yenidən mətbuata, ədəbiyyata qayıtdı. Qələm adamları bu mövzuda şeirlər, nəsr əsərləri yazmağa başladılar. Şairə Mahirə Nağıqızı da vətənpərvər ziyalı kimi şəhidlik mövzusuna müraciət etdi, vətən uğrunda canlarını fəda edən qəhrəmanlarımızı poeziyaya gətirdi. Onun "Şəhid nəğməsi" adlı şeiri 2016-cı ilin mayında qələmə alınıb. Deməli, 2016-cı ilin şanlı Aprel döyüşlərində döyüşçülərimizin rəşadəti və vətən uğrunda şəhadətə qovuşmaları şairəyə aşağıdakı məzmunda möhtəşəm sənət əsərini yazdırıb:**

*Burdan yavaş gedin, astadan keçin,*
*Qəbirlər titrəyər, daş dinə bilər.*
*Bir güllə gücünə sükut olanlar,*
*Bir addım səsinə diksinə bilər.*

*Boy vermiş məzarın qəbir daşları*
*Bir ömrün daşlaşan arzu-kamıdır.*
*Onların sağlığı döyüşən əsgər,*
*Məzarı vətənin istehkamıdır.*

*Hər biri məşəldi qaranlıqlara,*
*Hər biri vətənin, elin gərəyi.*
*Bayraq götürmədi hamısı, amma*
*Qaldırdı qəlblərdə bayraq dirəyi.*

Bu bəndlərlə başlayıb şeiri müəllif. Köhnə, əzəli şəhidlik mövzusuna yeni yaradıcılıq rakursundan yanaşıb. Bu məqamda tənqidçi-ədəbiyyatşünas Qurban Bayramovun Mahirə xanımın poeziyası ilə bağlı söylədikləri öz yerini alır: "Mahirə Nağıqızı ənənəvi mövzuda fərqli düşüncə tərzi ortaya qoyur, onun şeirlərində poetik fikir qeyri-adi çalarlarıyla meydana çıxır. O, belə mövzularda bizim adət etdiyimiz düşüncə sistemini, duyum tərzini rahatca dəyişib, fikirlərini, duyğularını fərqli şəkildə, amma, yenə də ənənəvi qiyafədə təqdim edir. Azərbaycan, ana Vətən silsiləsindən yazdığı şeirlər dediklərimizə bariz nümunədir:

*Azərbaycan - Qayalardan uca,*
*Yaşımdan da cavan*
*Dünyadan qoca.*

Doğrudan da, yuxarıdakı nümunənin də timsalında biz şairənin "ənənəvi mövzuda fərqli düşüncə tərzi" nümayiş etdirdiyinin şahidi oluruq.

Şəhidlər xiyabanından yavaşca-astadan getməyi rica edir, çünki bir güllə səsinə - bir güllə gücünə əbədi sükuta dalan şəhidlərimiz indi atacağımız addım səslərindən diksinər, qəbir daşları titrəyər, tərpənər deyir. Axı onlar yaralıdır, onların yaraları sızıldaya bilər, ruhları narahat ola bilər deyə kövrək hisslərini bu sayaq ifadə edib şairə.

İkinci bəndə fikir verək: Şəhidin məzar daşını "bir ömrün daşlaşan arzu-kamı" kimi səciyyələndirən şairə M.Nağıqızı daha sonra o şəhidin sağ olduğu - həyatda cismən var olduğu dönəmlərdə düşmənə qarşı döyüşən, sinəsini sipər edən bir əsgər-qəhrəman olduğunu dilə gətirir. Lakin "şəhidlər ölməz" kəlamımızdakı məntiqə uyğun olaraq göstərir ki, sağlığında sinəsini qabağa verərək vətəni qoruyan əsgər sanma ki, şəhid olduqdan sonra ölmüşdür; yox, onların məzarı - qəbir daşları da vətəni düşməndən qoruyan istehkam kimidir, qala divarı kimi düşmənin qabağını kəsib durublar.

Sanki bu istehkam məzar daşları ilə şəhidlərin ruhları da vətəni qoruyarlar. Əslində, bu, belədir. Çünki bu günkü və gələcək nəsillər zamanbazaman pir-ocaq yeri kimi müqəddəs bilib ziyarət elədiyi şəhid qəbirləri önündə qəlbən and içib, şəhidlərin ruhundan xeyir-dua (mənəvi güc) alıb, almaqla şəhidlərimizin yarı yolda qalmış arzularını doğruldacaqlarına and içirlər. Arzuların yaşaması isə insanın özünün ruhən yaşaması anlamına, başqa sözlə, ölməzliyi mənasına gəlib çıxır.

Məhz bu məntiqin davamı kimi gəlir 3-cü bənddəki vurğulanan fikirlər; məşəl olub qaranlıqları işıqlandıran şəhid ruhları özlərindən sonra "qəlblərdə bayraq dirəyi ucaltmaqla" vətənin-dövlətin əsas atributlarından olan bayrağımızın al rənginə müqəddəs şəhid qanlarını qatdılar. Bununla bir daha xatırlatdılar ki, vətənin bayrağındakı al rəng müstəqilliyimizin, məhz qəhrəman igidlərimizin tökülən müqəddəs qanları bahasına qazanılıbdır.

Mahirə xanım şeirin davamında da şəhidlərimizin qəhrəmanlığını bədii-fəlsəfi biçimdə mənalandırıb yazır:

*Yerə qan tökdülər, ruh göyərtdilər,*
*Tarixi yazdılar Vətən daşında.*
*Minillik xalqlara dərs öyrətdilər,*
*Bu ərən oğullar cavan yaşında.*

*Bir ana bətnindən düşüb, böyüyüb,*
*Min-min analara oğul oldular.*
*Hərəsi bir ocaq adından gedib.*
*Vətən ocağını qaladı onlar.*

*Şəhidlər, Şəhidlər! Öz canınızla*
*Bizə yol açdınız, dövran verdiniz.*
*Millətə diz çöküb baş əymək üçün*
*Şərəfli, müqəddəs ünvan verdiniz.*

Diqqət kəsilək burdakı fikirlərə: "Yerə qan tökdülər, ruh göyərtdilər" misrasında şəhidliyin ölməzlik fəlsəfəsi özünəməxsus üslubda ifadə olunub. Yəni şəhidlər Vətən uğrunda döyüşlərdə aldıqları ölümcül yaradan yerə - torpağa (Vətən torpağına) al qanlarını axıtdılar, bu qandan özlərinin ruhlarını (ölməzliklərini) cücərtdilər - göyərtdilər. Başqa sözlə, qan axıdıb cismən yerə gömülsələr də, ruhən dirçəldilər, ruhən əbədiyaşarlıq əldə etdilər. Bununla Vətən daşında tarix yazdılar - vətənin pozulmaz daş salnaməsində - daşlaşan yaddaşında vətənimizin şərəf tarixini yazdılar. Və bu ərənlikləri - hünərlərilə cavan olmalarına rəğmən "minilliklər boyunca dərs öyrətdilər" ki, vətəni necə sevmək, necə müdafiə etmək, necə qoruyub-yaşatmaq lazımdır.

Əbəs deyil ki, tənqidçi professor Qurban Bayramov M.Nağıqızının vətənpərvərlik duyğularının tərənnümündən bəhs edən şeirləri haqda yazır: "Onun bu tipli şeirlərində vətənə, torpağa, anaya, insana müqəddəs, sonsuz sevgi var. Bu qəbildən - "Vətəndir", "Şəhid nəğməsi", "Tanrı yolu", "Xocalı üçün elegiya", "Al bayrağım", "İstanbulun axşamları" və s. onlarla şeiri vətənə, torpağa, insana, doğmalara məhəbbətin mayası ilə yoğulubdur. Onun şeirlərinin kontekstində cəlbedici sadəlik və səmimiyyət var - adi, sadə və insani... "Vətəndir" şeirində olduğu kimi və mənə elə gəldi ki, bu şeir poeziyamızda bu mövzuda yazılan ən yaxşı şeirlər sırasında olmağa layiqdir".

Növbəti bənddə isə "bir ana bətnindən doğulan" şəhidlərin həm də bu şəhadətlikləri sayəsində "min-min analara oğul olduqlarının" ifadəsi ruhən yaşamağın müəyyən bir forması olduğunu göstərir. Belə ki, "hərəsi bir ocaqdan -müəyyən bir ata ocağından gedib" döyüşərək hamısı bir yerdə ümumi bir "vətən ocağını qaladılar". Yəni vətən adlı bir yanar ocağın sönməyən məşəlləri timsalına döndülər. Od-ocaq xalqımızın təfəkküründə həm də müqəddəsdir və bu məntiqlə də şeirinə son vuran şairə "millətə diz çöküb baş əymək üçün şərəfli, müqəddəs şəhidlik ünvanı verdiniz" deyir. Məhz bu məntiqlə Şəhidlər Xiyabanı "müqəddəs and yerimizdir" kəlamı bugün hamımızın dillər əzbəri olub, sabitləşmiş ifadə qəlibi şəklində hər kəsin dilində şüar kimi səslənir.

Şairə M.Nağıqızının 2016-cı ilin aprelində yazdığı "Al bayrağım" şeiri də şanlı Aprel döyüşlərindən aldığı ilhamdan qaynaqlanır. Akademik Möhsün Nağısoylunun da diqqətini cəlb edən bu şeirə alim münasibət bildirib yazır: "Mahirə Nağıqızının yaradıcılığında xarakterik cəhətlərdən biri, bəlkə də ən birincisi onun şeir yaradıcılığının poeziyamızın yaşarı ənənələrinə sıx bağlılığıdır. Bu bağlılıqda həyat və onun gerçəkliyinin inikası çox aydın ifadə olunur. Ümumilikdə isə Mahirə xanımın zəngin və rəngarəng poetik dilinin linqvopoetikası, poetik sintaksisi, üslubi frazeologiyası, onomastik vahidləri təkrarsız bir şəkildə, yaradıcılıq axtarışlarının nəticəsi olan formada aşkarlandığından cəlbedicidir, lirizmi, musiqililiyi ilə seçilir, fərqlənir. Və qeyd edək ki, bütün bu "seçilmələr"dən yaranan fərqlər onun şeirlərini daha canlı, canlı olduğu qədər də oxucusu üçün doğma edir. Bütün bunları onun indiyə qədər nəşr etdirdiyi kitablarındakı bütün əsərlərin tematikasında müşahidə etmək mümkündür: həyat, dünya, ömür-gün, mənəvi-əxlaqi mənzərə, qayğılarımız və problemlərimizə vətəndaş baxışı, 30 ildir ki, bütöv bir millətin sürüklənərək zorla cəlb edildiyi müharibə və həmin müharibənin aktual etdiyi mövzular. Mahirə Nağıqızı qeyd edilən mövzuların hər birinə münasibətində orijinaldır və o orijinallığı şərtləndirən spesifik yanaşmalar onun oxucusunda qaldırılan məsələlərin yanından ötəri keçib getmək yox, düşünmək hissi oyadır. Onun dövlət müstəqilliyimizin elan edildiyi zamana qədər hər bir azərbaycanlının həsrətində olduğu, son 30 ildir ki, qürur və ehtiram mənbəyinə çevrilən bayrağımıza həsr olunmuş şeiri - "Al Bayrağım" bu cəhətdən həm də uğurlu bir sənət əsəri, parlaq poetik nümunələrdən biri kimi təqdim edilməyə layiqdir:

*Xalqımızın gəldiyi yolun sinə dəftərin,*
*Göyərən arzuları, al bayrağım, dalğalan!*
*Yüksəlişin-əlaci sağalmamış dərdlərin,*
*O dərdləri yadına sal, bayrağım, dalğalan!*

*Min illərdir içimiz rənglərini göyərdir,*
*Yaşamaq haqqımızın əbədi rəmzisən bir.*
*Ruhumuz-qəlbimizdə asılan direyindir,*
*O dirəkdə uca dur, qal, bayrağım, dalğalan!*

*Qəlbimizdə oxunan türkülərlə yarandın,*
*Altaylardan salınan körpülərlə yarandın.*
*Sabahlara aparan ümidlərlə yarandın,*
*Al bizləri qoynuna, al, bayrağım, dalğalan!".*

Doğrudan da, akademikin göstərdiyi kimi, Mahirə xanım poeziyasında "qaldırdığı məsələlərin yanından ötüb keçmək yox, düşünmək hissi oyadır". Elə şairliyin də əsas missiyası toxunduğu mövzunu lirik - emosional duyğularla tərənnüm və təqdim etməklə oxucunun fikrini - düşüncəsini həmin mövzuya səfərbər etməkdədir. "Al bayrağım" şeirində "xalqımızın tarixinin - yolunun sinə dəftəri" kimi öyüb-vəsf elədiyi bayrağın həm də "göyərən - boy verən arzular" mücəssəməsi olduğunu özünəxas üslubda səciyyələndirir. Göstərir ki, bayrağımızın yüksəlişi "əlacı sağalmamış dərdlərimiz"i ifadə etməsindədir. O dərdlərin sağalması sənin ucalarda dalğalanmağındadır və buna görə də müəllif bu bayrağın yüksəkliklərdə dalğalanmasını dərdlərimizin sağalması anlamında qiymətləndirir.

Növbəti bəndlərdə də yaşamaq haqqımızın əbədi rəmzi olan bayrağımızın "Qəlbimizdə oxunan türkülər" və "Altaylarda salınan körpülərlə yarandığını" bədii-poetik həqiqətlər şəklində açıb göstərir. Bəli, ona görə ki, bayraq dövlətin, xalqın var olmaq (yaşamaq) hüququnun rəmzi-göstəricisidir həm də. "Altaylardan salınan körpü" dedikdə isə qədim türk birliyimizin, böyük Turanın şərəfinə qəlbimizdə səsləndirdiyimiz türkünün-mahnının şərəfinə Göytürk deyib səni başımızın üstündə - yüksəklərdə dalğalandırdıq və bu amal və ideyanın doğuluşundan var oldun, göy-al-yaşıl bayrağımız.

Əbəs deyil ki, Möhsün müəllim də bayrağın dövlətçiliklə bağlı atributiv mahiyyətinə bağlı yazır ki, "Bayraq hər bir xalqın ancaq çağdaş zamanının rəmzi deyil, onun şüurlu həyatı boyu arzu və ideallarından yaranan gerçəkliyin, gələcək ümidlərinin dayaq yeridir. Bayraq, hər bir millətin arzularının, dünyagörüşünün ifadəsindən ibarət rənglərlə onun gələcək hədəflərinin ifadəsidir. Dövlət Bayrağına qədər gəlib çıxmış hər bir xalq o gerçəkliyə qədər gəlib çıxmış yolun əslə asan başa gəlmədiyini dərk etməli və yetişən nəslə Bayraq məhəbbəti ilə bərabər, onun məsuliyyət hissini ötürməlidir. Bayraq ancaq dövlətin atributlarından biri olmamalı, onu yaradan və ucaldan millətin əbədi güc simvoluna çevrilməlidir; bu, elə bir güc olmalıdır ki, hər bir vətəndaş istidə onun kölgəsində sərinləməli, soyuqda isə onun qayğısına bürünməlidir. Buna görədir ki, Mahirə xanım Ona üz tutaraq "Yaşamaq haqqımızın əbədi rəmzisən bir" - deyir, dünyanın harasında olmasından asılı olmayaraq hər bir azərbaycanlının Ona güvəndiyini yada salır:

*Qılıncında Babəkin, Nizaminin şeirində,*
*Yaşadın susmayacaq Vətən nəğmələrində.*
*Qarşında baş əyən var dünyanın hər yerində,*
*Oğulun var, qızın var, var, bayrağım, dalğalan!*

*Hopub, bağrına hopub, hopub şəhid qanları,*
*Sənə bürünüb gəlib min-min yurd qurbanları.*
*Dədə əmanətisən-qızları, oğlanları*
*Bu vətənin səninçün yar-bayrağım, dalğalan!*

*Azərbaycan əsgəri qanım halaldır - dedi.*
*Ucada dayanmağın bir cah-cəlaldır - dedi.*
*Gücünün qarşısında düşmən olan əyildi,*
*O bilirki, olacaq xar, bayrağım, dalğalan!*

Bu müşahidə etdiyimiz poetik cəhətlər, professor, ədəbiyyat tənqidçisi Qurban Bayramovun təbirincə desək, bəzən heyrətləndirici gözlənilməz bənzətmələr, təşbehlər, obrazlar, alliterasiyalar, səs və söz duyumu Mahirə Nağıqızının şeirlərində onun müasir həyatdan, yaşadığımız bu dünyadan, əlbəttə, ilk növbədə, Azərbaycan gerçəkliyindən aldığı lirik təəssüratlar, duyğu və düşüncələr axarında öz əksini tapır".

Bayraq anlayışının düşüncədə keçib gəldiyi ümumi yola nəzər salan alimin fikirləri Mahirə xanımın misraları vasitəsilə poetik ovqatda boy göstərir. Babəkin qılıncı, Nizaminin şeiri-müəllif çağdaş Azərbaycanımızın bayrağının bu rişələrdən qaynaqlandığını poetik vüsətlə dilə gətirir. Azərbaycanımızın yadellilərə boyun əyməyən gücün-qüvvənin ümumiləşmiş səciyyəsi olaraq Babəkin qılıncını misal gətirir, N.Gəncəvinin poetik irsinin timsalında ideya, fikir, əməl-məslək daşıyıcısı olduğumuzu önə çəkərək, bayrağımızın - müasir Azərbaycan bayrağının bu kimi söz və qılınc savaşlarının qalibiyyət mücəssəməsindən doğulduğunu - yarandığını bədii həqiqət şəklində dilə gətirir. Məhz belə uca ideyaların bətnindən doğan Dövlət Bayrağımızın bu gün meydanda var olması üçün qəhrəman oğullarımız canlarını qurban verdilər. Millət kimi, dövlət kimi, Vətən kimi müstəqilliyimizi isbata yetirdilər. Buna görədir ki, şairə sonda "gücünün qarşısında düşmən olan əyildi" ifadəsini ötkəmliklə dilə gətirir. Çünki şairəyə də ilham verən və bu şeiri yazdıran vətəninə - bayrağına "qanım halaldır" deyən Azərbaycan əsgəridir. Çünki bayrağımızın ortasındakı - bağrındakı qırmızı rəng uğrunda "minlərlə yurd qurbanının olduğu şəhidlərin al qanlarının bayrağımıza hopmuş rəngidir".

Bax, beləcə, şairə M.Nağıqızı Hüseynova bayrağımızı ülvi duyğularla təsvir - tərənnüm edir. İstər "Şəhid nəğməsi", istər "Al bayrağım" - şeirlərinin hər ikisi vətənpərvərlik duyğularının ahəngdar simfoniyası kimi qəlbimizi ehtizaza gətirir...

Şakir Albalıyev,
Qarabağ müharibəsi veteranı